5 dekabr / 2020

*Yolla gedən olmasa bilinməz,*
*bilinməz gəlir bu yol ya gedir...*

*Bu fəlsəfə fəxr etdiyim Azərbaycanın xalq yazıçısı dramaturq və təpədən dırnağa Azərbaycanlı olan əziz qardaşım Kamal Abdullanın düşüncəsindən qələmindən qopan misradır...*

*Hər bir insanın getdiyi yol, onun əməlləri, gördüyü işləri, tutduğu mövqeyi və insansevərliyi ilə yadda qalır, zənnimcə. Kamal Abdullanın yolu zəngin və parlaq bir yoldur. Və yalnız Kamal Abdulla bilir, - "Bu yol gəlir ya gedir". Mən bu təbriki yazanda, Laçın işğaldan azad olan gecənin zəfərli sabahı idi... Kamal Abdullanın bir daha, - Bu yol gəlir ya gedir,, misrasının nə qədər bu gün mənə kəsb etdiyini düşündüm...*

*Əziz gardaşım, - səni yazdığın pyesin premyerasından səhnədən təbrik edə bilərdim, bəlkə televiziyada Kamal Abdullaya həsr olunmuş yaradıcı görüş gecəsində və ya bir dost məclisində qalxıb söz alardım...*

*Amma bu gün Azərbaycan sərhədlərinin tam bərpa olduğu bir tarixdə, sənin doğum gününü təbrik edirəm. Yolun hər zaman pak zəngin və işıqlı olsun.*

*Fəxrəddin MANAFOV*